*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.*

# Yeni YOL

**28 FEVRAL 2022-Cİ İL № 004 (151)**

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ *HAQQIN SÖZÜ – SÖZÜN HAQQI*




## ხოჯალოს გენოციდი:

26.02.1992

613 მოკლული, მათ შორის :
63 ბავშვი;
106 ქალი;
70 ზრდასრული;
8 ოჯახი სრულიად განადგურებული;
25-მა ბავშვმა დაკარგა ორივე მშობელი;
130 ბავშმა დაკარგა ერთი მშობელი;
487 დაჭრილი;
1275 მძევლად აყვანილი;
150 დღემდე გაუჩინარებული.

**აგრესორი: სომხეთი**

## İQTİSADİYYAT NAZİRİ: GÜRCÜSTAN UKRAYNADAN QAÇQIN QƏBULUNA TAM HAZIRDIR



Gürcüstanın iqtisadiyyat və dayanıqlı inkişaf naziri Levan Davitaşvili brifinqdə deyib ki, "Gürcüstan Ukraynadan qaçqınlar olacağı halda onlara maksimal dəstək göstərməyə hazırdır".

Nazir bildirib ki, Gürcüstan ukraynalı dostlarına humanitar yardım göstərmək üçün səfərbər olunub: "Əgər Ukraynadan qaçqınlar olacaqsa, biz onları qəbul etməyə tam hazır olacağıq".

## GÜRCÜSTAN RƏSMİLƏRİ UKRAYNANIN ƏRAZİ BÜTÖVLÜYÜNƏ DƏSTƏK İFADƏ EDİB



Gürcüstan Prezidenti Salome Zurabişvili Rusiyanın Ukraynanın Donetsk və Luqansk vilayətlərini tanımasını qətiyyətlə pisləyib. Bu barədə dövlət başçısı tviter hesabında yazıb.

S.Zurabişvili Gürcüstanın Ukrayna Prezidenti Volodimir Zelenskinin yanında olduğunu bildirib, ölkənin ərazi bütövlüyünə dəstək ifadə edərək sülhün tərəfdarı olduğunu vurğulayıb.

Gürcüstan Baş nazirinin müavini, xarici işlər naziri David Zalkaliani də Rusiyanın addımını pisləyib. O tviter hesabında Donetsk və Luqansk vilayətlərinin tanınmasının beynəlxalq hüququn fundamental prinsiplərinin pozulması kimi qiymətləndirib.

## UKRAYNA İLƏ BAĞLI MÖVQEYİNƏ GÖRƏ BAŞ NAZİRİN İSTEFASI TƏLƏB OLUNUB

Tbilisidə hökumət administrasiyasının binası qarşısında minlərlə insanın iştirakı ilə mitinq keçirilib. Etirazçılar Baş nazir İrakli Qaribaşvilinin Ukrayna məsələsi ilə bağlı mövqeyinə görə istefasını tələb ediblər.

Aksiyada Ukraynaya dəstək şüarları da səsləndirilib.

Mitinqdə ictimai xadimlər, siyasətçilər, ictimai fəallar və sıravi vətəndaşlar iştirak edib.

Qeyd edək ki, İ.Qaribaşvili fevralın 25-i jurnalistlərə açıqlamasında Gürcüstanın Rusiya əleyhinə maliyyə və iqtisadi sanksiyalara qoşulmayacağını bildirib. O, həmçinin Ukrayna xalqına dəstək ifadə etmək üçün Kiyevə gedəcəyini istisna edib.

*Səh. 2* "İNSAN ORQANİZMİNİN İNKİŞAFI" FƏSLİ - Azər Musaoğlu yazır

*Səh. 3* İNSANLIĞIN BİLİNMƏYƏN ÜNVANI - Lamiyə Hacıyeva yazır

*Səh. 4* AZƏRBAYCANIN TƏHSİL NAZİRİ GÜRCÜSTANDA MÜZAKİRƏ ETDİYİ MƏSƏLƏLƏRDƏN DANIŞIB

*Səh. 4* PEDAQOQLARIN VƏ MÜƏLLİM OLMAQ İSTƏYƏNLƏRİN 2022-Cİ İLİN YAYINDA NEÇƏ İMTAHAN VERMƏK HÜQUQU VAR?

*Səh. 5* ADAPTASİYA - Esmira Ələkbərli yazır

*Səh. 5* ANALAR GÜNÜ - Lətafət Kərimova yazır

*Səh. 6* TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ - Elizbar Cavelidze

*Səh. 7* NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - Afiq Muxtaroğlu yazır

## GÜRCÜSTANDA KORONAVİRUSA YOLUXANLARIN SAYI 1,6 MİLYONU KEÇİB



Fevralın 28-nə olan son məlumata əsasən, Gürcüstanda koronavirusa yoluxanların ümumi sayı 1 605 472 nəfərə çatıb. Bu haqda hökumətin xüsusi yaratdığı www.stopcov.ge saytında qeyd edilib.

Məlumatda ölkədə koronavirusdan ölənlərin ümumi sayı 16 163 nəfər, sağalanların ümumi sayı isə 1 504 161 nəfər olaraq göstərilib.

Fevralın 28-nə kimi ölkədə ümumi olaraq 2 816 627 nəfər COVID-19 əleyhinə peyvənd olunub.

Ölkə üzrə karantin rejimində 4 nəfər, stasionar nəzarətdə 4 595 nəfər, COVID mehmanxanalarda olan şəxslərin sayı 417 nəfə olaraq göstərilib.



# "İNSAN ORQANİZMİNİN İNKİŞAFI" FƏSLİ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Yadımdadır, 9-cu sinifdə oxuyarkən biologiya dərsində "İnsan orqanizminin inkişafı" fəslinə, daha dəqiq, "Çoxalmaq və inkişaf", "İnsanın cinsiyyət sisteminin quruluşu", "Cinsi yetişkənlik. Yeniyetmə dövrünün xarakteristikası", "Bətndaxili inkişaf. Mayalanma. Hamiləlik. Rüşeym və onun inkişafı" başlıqlı paraqraflara gələndə biologiya müəllimi 8-9 səhifədən ibarət olan bütöv bir fəsli buraxıb yeni fəsildən dərsə davam etdi.

Aşağıda haqqında danışacağım problemin mənbəyi bəlkə də elə buradan başlayır – bu 8-9 səhifəlik bir fəslin üzərindən yox imiş kimi keçməkdən. Bəlkə biologiya müəllimi adıçəkilən paraqraflarda mövzuya aid illustrasiyalara, şəkillərə baxıb gülüşən, şitləşən, səs-küy salaraq dərsi pozan şagirdlərdən canını qurtarmaq üçün bütöv bir fəslin üzərindən keçir; bəlkə də utandığından, oğlu, qızı yaşda uşaqlardan həya etdiyindən; bəlkə də digər mental və Tantal səbəblərdən... dəqiq deyə bilmərəm, bunu onların özündən soruşmaq lazımdır. O ki qaldı insan orqanizmi ilə bağlı bütöv bir fəslin üzərindən hoppanmaq üçün bu cılız "arqumentlərə", bunun da günahkarı müəllimlər özüdür.

Əvvəla, müəllimlər (bütün fənn müəllimləri) şagirdləri 9-cü sinfə qədər elə yetişdirməli, təhsil və bilik, təlim və tərbiyə verməlidirlər ki, "insanın cinsiyyət sisteminin quruluşu", "spermatozoid", "mayalanma", "hamiləlik" və bu kimi söz və söz birləşmələrinə kitabda rast gələndə şagird hırıldayıb dərsi pozmasın, bu mövzulara aid illustrasiyalara baxanda şitləşməsin, özünü görməmiş primatlar kimi aparmasın. İkincisi də, müəllim fənnə aid olan proqramı tam tədris etməlidir, özünün və hansısa tərbiyəsiz şagirdin "əxlaq" prinsiplərinə uyğun yox. Yox, əgər bu fəsil tədris edilməyəcəkdirsə, müəllimlər yığılsınlar və fəslin dərslikdən çıxarılması üçün aidiyyəti orqanlara etirazlarını bildirsinlər, mitinqlər keçirsinlər, aclıq aksiyası elan etsinlər.

Əxlaq demişkən, biz niyəsə əxlaq deyəndə həmişə qurşaqdan aşağını nəzərdə tuturuq. Bəlkə doğrudan da əxlaqımız elə qurşaqdan yuxarı – ürəyimizə, beynimizə qalxa bilmir və ya qaldıra bilmirik. Söhbət ürəkdən, beyindən getmişkən, bəlkə doğrudan da biologiya müəlliminin "İnsan orqanizminin inkişafı" fəslinin üzərindən keçməsinin zibilinə düşmüşük. Natamamlıq kompleksimizin sirri də bu 8-9 səhifədə gizlənir. Axı ürək də, beyin də insan orqanıdır. İnsanı necə natamam, yarımçıq öyrənmək olar? Qadının və kişinin reproduktiv orqanlarının vaxtında düzgün tədrisi nə qədər insanın sağlamlığına, gələcək ailə həyatına, gələcək qərarına, iradəsinə müsbət təsir etmiş olar və heç kəsin "əxlaqını" da pozmaz.

Niyə yuxarıda dırnaq içərisində olan söz və söz birləşmələrindən danışanda, tədris edəndə, maarifləndirəndə əxlaqsız olursan, AMMA rüşvət verəndə/götürəndə; seçkilərin saxtalaşdırılmasında könüllü/könülsüz iştirak edəndə; başqasının malına göz tikəndə, haqqını yeyəndə; başqalarının hesabına varlananda; yalan danışanda; oğurluq edəndə; haqsızlığa, ədalətsizliyə göz yumanda, susanda; vəzifə hərisliyi edəndə; tanışlıqla işə düzələndə/düzəldəndə; başqasının yerinə haqqın olmadan danışanda, qərar qəbul edəndə; əməllərinə millət, din, bəşəriyyət cübbəsi geyindirəndə; azyaşlıları zorla evləndirəndə, onların toyunda iştirak edib sağlıq deyəndə, qol-qanad açıb rəqs edəndə, keflənib oynamaq üstündə dava salanda; saxta sənədlərə imza atanda; tayfabazlıq, yerlibazlıq, kələkbazlıq, hiyləbazlıq və sair bazlıqlarla məşğul olanda əxlaqsız olmursan?!.

Üzərindən iyirmi il ötüb. Görəsən biologiya müəllimləri "İnsan orqanizminin inkişafı" fəslinin üzərindən yenə də lazımsız bir şey kimi hoppanırlarmı, əslində isə, bəlkə də ən lazımlı olan bu fəsli tədris edirlərmi? Məncə bunu araşdırmaq və xüsusi tədbirlər görmək, monitorinqlər keçirmək lazımdır.

Bəlkə də heç lazım deyil, axı hələ də "sevgilimdir", "nişanlımdır", "xanımımdır (həyat yoldaşımdır)", "tualet haradadır", "doğum evinə hansı avtobus gedir" və bu kimi ifadələri işlədərkən böyük bir "əxlaqsızlıq" edirikmiş kimi utanıb-qızararaq üzr istəyib, bağışlanmaq diləyiriksə, deməli biologiya müəllimləri hələ də "İnsan orqanizminin inkişafı" fəslinin üzərindən addayırlar. Görəsən, təhsil nazirliyinin bundan xəbəri varmı?

## QARDABANİ GƏNCLƏR MƏRKƏZİNDƏ XOCALI SOYQIRIMI YAD EDİLİB



Qardabani Gənclər Mərkəzinin təşkilatçılığı və Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə fevralın 24-ü Qardabanidə Xocalı soyqırımı yad edilib.

"Yeni Yol" xəbər verir ki, Xocalıda həlak olanların xatirələri bir dəqiqəlik sükutla yad edildikdən sonra tədbirin aparıcısı İsə Xəmmədov çıxış üçün Qardabani Gənclər Mərkəzinin icraçı direktoru Hacı Hacıyevə söz verib.

H.Hacıyev tədbir iştirakçılarını salamladıqdan sonra soyqırımın bir tək Azərbaycan xalqına qarşı deyil, həmçinin bütün insanlığa qarşı işlədilmiş bir cinayət olduğunu deyib.

Sonra "Beez" Uşaq Teatrının qurucusu və bədii rəhbəri Binəli İslamoğlunun ssenari müəllifi və rejissoru olduğu "Ana laylası" adlı tamaşa nümayiş etdirilib.

Tamaşadan sonra Azərbaycan Respublikasının Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyev çıxış edərək Xocalı soyqırımının dünyadakı hüquqi yerini tapması üçün Azərbaycan hökumətinin apardığı fəal işlərdən danışıb, Prezident İlham Əliyevin güclü siyasəti və müzəffər Azərbaycan ordusunun yenilməzliyi nəticəsində bütün şəhidlərin qisasının alındığını vurğulayıb.

Türkiyə Cümhuriyyətinin Gürcüstandakı səfirliyinin din işləri müşaviri Əhməd Ərdəm də öz çıxışı zamanı Türkiyənin Azərbaycanla qardaş ölkə olduğunu və Azərbaycana hər zaman dəstək olmağa hazır olduğunu, bunu 44 günlük Vətən müharibəsində də göstərmiş olduğunu qeyd edib.

Tədbirdə ziyalılar, ictimaiyyət nümayəndələri və müxtəlif qeyri hökumət təşkilatlarının nümayəndələri də iştirak ediblər.

Tədbirin sonunda Xocalı şəhidləri adına ehsan süfrəsi təşkil edilib.

## GÜRCÜSTAN MARTIN 1-DƏN SƏRHƏDLƏRİNİ BÜTÜN ÖLKƏLƏR ÜÇÜN AÇIR

Dövlət Qurumlararası Koordinasiya Şurasının qərarına əsasən, Gürcüstan martın 1-dən etibarən sərhədlərini bütün ölkələr üçün açır.



Qərara görə, martın 1-dən etibarən xarici ölkə vətəndaşları Gürcüstana gələrkən ya iki doza ilə peyvənd olunmalarına dair sənədi, ya da son 72 saat ərzində verdikləri PCR testinin neqativ nəticəsini təqdim etməlidirlər.

Qeyd edək ki, Gürcüstan hökuməti koronavirus pandemiyası səbəbindən 67 ölkə üçün sərhədlərini bağlamışdı.

## KVEMO KARTLİDƏ KÜÇƏLƏRƏ AZƏRBAYCANLILARIN DA ADLARI VERİLƏCƏK



Kvemo Kartli qubernatoru Giorgi Doxturişvili jurnalistlərə açıqlamasında Kvemo Kartli regionunda küçələrin adlandırılması prosesində yerli azərbaycanlı sakinlərin də fikirlərinin nəzərə alınacağını deyib. Onun sözlərinə görə, prosesə başlanılıb və artıq konkret baxışlar formalaşdırılıb.

"Küçələrə adların verilməsi ilə bağlı qərarlar sakrebulo üzvlərinin səs çoxluğu və aidiyyəti dövlət qurumlarının iştirakı ilə qəbul ediləcək. Biz kimisə milli mənsubiyyətinə görə ayırmırıq. Əlbəttə ki, küçələrə həm gürcülər, həm də azərbaycanlıların da adları veriləcək", - deyə bölgə qubernatoru bildirib.

G.Doxturişvili dövlət nümayəndəsinin Rustavi şəhərindəki administrasiyasının əməkdaşları arasında yerli azərbaycanlıların olub-olmaması ilə bağlı sualı da cavablandırıb. O, idarədə iki azərbaycanlının çalışdığını bildirib. Qubernator regionun bütün bələdiyyələrində də azərbaycanlı kadrların olduğunu qeyd edərək, onlarla fəal və sıx iş aparıldığını deyib.

Qeyd edək ki, Kvemo Kartlidə küçələrin adlandırılması təşəbbüsü qubernatora məxsusdur. Gürcüstanın azərbaycanlı icması küçələrə bu ölkədə doğulan və elm, mədəniyyət, siyasət və digər sahələrdə böyük uğurlar qazanmış soydaşlarımızın adlarının verilməsi təşəbbüsü ilə çıxış edirlər.

Xatırladaq ki, 2017-2019-cu illərdə qubernatorun üç müavinindən biri azərbaycanlı olub. Hazırkı deputat Zaur Dargallı 2019-cu ilin mayında Marneuli meri seçiləndən sonra Kvemo Kartlinin dövlət səlahiyyətlisinin müavini vəzifəsinə azərbaycanlı təyinat almayıb. G.Doxturişvilinin hazırkı müavinlərinin üçü də gürcüdür.

# İNSANLIĞIN BİLİNMƏYƏN ÜNVANI

Son zamanlar insanoğlunun sürükləndiyi bir yön var. Bu yönün heç ürəkaçan olmaması bugünkü yazının meydana gəlməsinə səbəb oldu.

Nəyə görə insanoğlu bu qədər əsəbidir? İnsanoğlunun daxili aləmində nəyə görə bu qədər kibir və paxıllıq hissi var?

Demək olar ki, bütün insanlarda var bu duyğular, ancaq bir qismində bu duyğular oyanılması mümkün olmayan bir yuxu içində ikən, bir qismində hər zaman oyaqdır.

Bunun bir çox səbəbləri ola bilər, ancaq başlıca səbəblərdən biri insanın həyatdan gözləntilərinin yüksək olmasıdır. Hər zaman daha çox arzulamasıdır, lazımından çoxunu arzu etmək də bir duyğu problemidir əslində. Yəni ortalama yaşamaq üçün lazım olandan daha çoxunu murad etmək. Arzu olunan əldə edilmədiyi təqdirdə ortaya izlənməsi xoş olmayan səhnələr çıxır – qısqanclıq kimi, əsəb kimi və s. Bu duyğular qədərində olduğu təqdirdə gözəldir. Bu duyğular əslində idarə edildiyi təqdirdə insanı qoruyan duyğulardır, ancaq idarə edilmədikdə artıq xoşa gəlməyən səhnələrə qapı aralamış olur.

Bəs insanoğlu nəyə görə lazımından daha çoxunu arzu etməkdədir? Buna acgözlük də demək olar.

Əgər bir insan yalnız özü ilə, öz ailəsi ilə məşğul olaraq sadəcə özünün olduğu bir mühitin ehtiyaclarını düşünərsə, başını qaldırıb ətrafa baxmadan yaşayarsa, o zaman bu acgözlük meydana gələr. Bir də ki, davamlı daha üst təbəqəli insanları göz önünə alarsa, üst təbəqəli deyərkən gəlir qaynağı daha yüksək, yaşam standartları daha yüksək olanlarla özünü müqayisə etməyə çalışarsa, bax o zaman da yuxarıda bildirdiyimiz acgözlük, daha çox əldə etmək duyğusu meydana çıxar.

Ancaq insan yaşadığı həyatın fani olduğunu, əldə olunan hər bir mülkün burada qalıcı olduğunu düşünərək, yaşam standartları daha zəif, ehtiyac içində çırpınan insanlara baxaraq özü üçün bir dərs, bir nümunə çıxararaq daha çox əldə etmə duyğusunu basdıra bilər.

Son illərdə ölkəmizdə, eləcə də dünyada baş verən bir çox hadisələrin təməlində məhz bu duyğuları düzgün idarə edə bilməmək dayanmaqdadır. İnsanoğlunun getdiyi bu istiqaməti aydınlaşdırmalıyıq, nəyə görə? Kimə görə? Hansı səbəbə görə? Bu sualların cavabını tapmaq və bu duyğuların iplərini ələ almaq vaxtı gəlmişdir və hətta deyə bilərəm ki, gec qalınmışdır.

Həyat və insan var olduğu müddətcə insanlığı qorumaq bizim borcumuzdur. Daha günəşli sabahlar, daha aydın bir gələcək üçün bu şərtdir.

Sözügedən burulğanın pəncəsində çırpınan, sözün əsl mənasında can çəkişən insanlığı qorumalıyıq. Bu, sənin, mənim, hər birimizin məsuliyyətini dərk etdiyimiz bir sənətimiz halına gəlməlidir. Gəlməlidir ki, bəlkə insanlıq qoruna, bəlkə günəş insanlıq üzərinə doğarkən daha isidici ola, daha parlaq ola...

Təəccüb hissi keçirməkdən yorulan qəlblərimizin, bu hisslərdən çatılan qaşlarımızın artıq yerini təbəssümün izlərinə buraxmaq zamanı gəlmədimi?

Yetişən nəslə əmanət olaraq can çəkişən insanlıqmı qoyacağıq? Ya nəslimiz yetişməyə fürsət tapmadan insanlıq can versə onda necə olacaq? Papağımızı önümüzə atıb bərabər oturub düşünməyin, yeni fikir meydana qoymağın vaxdı gəlib çatmadımı?

Ümüdlər var olduqları məkanları, yəni qəlblərimizi tərk etmədən qollarımızı sıvayıb əl birliyi ilə işə qoyulsaq, hər kəs bacarığı nisbətində tər axıtsa, canını, gücünü ortaya qoysa necə də parlaq gələcəklər inşa edilə bilər.

**_Lamiyə HACIYEVA_**
_Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar Şöbəsinin sədri_

## TÜRKİYƏ SƏFİRİNİN MÜAVİNİ: XOCALI TÜRK DÜNYASININ QƏLBİNDƏ DƏ BÖYÜK YARA AÇIB



“Türkiyə hər zaman Azərbaycanla birgə olub, bundan sonra da “Bir millət, iki dövlət” şüarına sadiq qalaraq azərbaycanlı qardaşlarının yanında olmağa davam edəcək”. Bunu Türkiyənin Gürcüstandakı səfirinin müavini Onur Sevim Tbilisidə “Xocalıya ədalət” adlı sərginin açılış mərasimində deyib.

Diplomat qeyd edib ki, Xocalı faciəsi tarixin gördüyü ən dəhşətli hadisədir.

Onun sözlərinə görə, Xocalı soyqırımı yalnız azərbaycanlıların faciəsi deyil, insanlıq üçün də qara ləkədir: “Xocalı azərbaycanlılarla yanaşı türk dünyasının qəlbində də böyük yara açıb. Bu qətliam insan olan hər kəsin ürəyində davamlı olaraq yaşamalıdır”.

Diplomat vurğulayıb ki, Xocalı faciəsinin törədilməsi azərbaycanlıların milli əzmini qırmaq məqsədi daşıyırdı: “Lakin bu məqsədə nail olunmadı. Biz bunu 44 günlük Vətən müharibəsində gördük. Türkiyə hər zaman Azərbaycanla birgə olub, bundan sonra da “Bir millət, iki dövlət” şüarına sadiq qalaraq azərbaycanlı qardaşlarının yanında olmağa davam edəcək”.

## İRAKLİ QARİBAŞVİLİ AZƏRBAYCANIN TƏHSİL NAZİRİ İLƏ GÖRÜŞÜB



Gürcüstanın Baş naziri İrakli Qaribaşvili və Azərbaycanın təhsil naziri Emin Əmrullayev iki ölkə arasında təhsil və elm sahələrində əməkdaşlığın genişləndirilməsi məsələlərini müzakirə ediblər.

Görüşdə qeyd edilib ki, Gürcüstan və Azərbaycanın təhsil nazirlikləri arasında əməkdaşlıq haqqında sazişin imzalanması iki ölkənin elmi, ali və peşə-texniki təhsil müəssisələri arasında əlaqələrin möhkəmləndirilməsi, gürcü və Azərbaycan dili və ədəbiyyatı fənlərinin tədrisinin keyfiyyətinin artırılmasına töhfə verəcək.

Vurğulanıb ki, Gürcüstan tərəfi Azəbaycandakı gürcüdilli, Gürcütandakı azərbaycandilli ümumtəhsil məktəblərinin müəllimlərinin ixtisas artımı istiqamətində işlərini davam etdirəcək.

Həmçinin bildirilib ki, Gürcüstan hökuməti keyfiyyətli təhsilin əlçatanlığının genişləndirilməsi, Azərbaycan dilində təhsil alanların dövlət dilinə yiyələnməsi istiqamətində səylərinin artırılmasına sadiqdir.

Görüşdə Gürcüstanın təhsil və elm naziri Mixeil Çxenkeli və Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev də iştirak edib.

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ GÜRCÜSTANDA SƏFƏRDƏ OLUB



“Mövcud regional layihələr Gürcüstan ilə Türkiyə arasında səmərəli strateji əməkdaşlığı daha da möhkəmləndirir. Bu layihələr həm də bizim dostluğumuzun bariz nümunəsi, təhlükəsizliyin qarantıdır”. Bunu fevralın 21-i Gürcüstanda səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop Baş nazir İrakli Qaribaşvili ilə görüşü zamanı deyib.

Gürcüstan Hökumət Administrasiyasının mətbuat xidmətindən verilən məlumatda bildirilib ki, görüşdə Türkiyə ilə Gürcüstan arasında ən yüksək səviyyədə olan strateji tərəfdaşlıq müzakirə olunub. Qeyd edilib ki, bu il Gürcüstanla Türkiyə arasında diplomatik münasibətlərin bərpasından 30 il ötür və yubileylə bağlı bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Görüş zamanı iqtisadi əməkdaşlıqdan da bəhs edilib, Türkiyənin Gürcüstanın bir nömrəli ticarət tərəfdaşı olaraq qaldığı bildirilib.

Söhbət zamanı tərəflər strateji tərəfdaşlığı daha da gücləndirməyə qarşılıqlı hazır olduqlarını bildiriblər və yüksək səviyyəli səfərlərin müsbət dinamikasını vurğulayıblar.

Qeyd edək ki, TBMM-in sədri Mustafa Şentop Gürcüstana səfəri çərçivəsində Gürcüstan Prezidenti Salome Zurabişvili və Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili ilə də görüşüb.

Görüşdə regionda baş verən cari hadisələr müzakirə edilib və iki ölkənin gələcək inkişafı üçün regional sabitliyin, sülhün vacibliyi vurğulanıb.

## MİXEİL ÇXENKELİ: "GÜRCÜSTAN VƏ AZƏRBAYCAN ARASINDA TƏHSİL VƏ ELM SAHƏSİNDƏ MÜNASİBƏTLƏR DƏRİNLƏŞDİRİLƏCƏK"



*"Gürcüstan və Azərbaycan arasında təhsil və elm sahəsində münasibətlər dərinləşdiriləcək".* Bunu Gürcüstanın təhsil və elm naziri Mixeil Çxenkeli jurnalistlərə açıqlamasında deyib.

Nazir azərbaycanlı həmkarı Emin Əmrullayevlə çox yaxşı və maraqlı görüş keçirdiyini bildirib:

*"Azərbaycanla qarşılıqlı əməkdaşlıq sayəsində bir sıra nailiyyətlər əldə olunub. Bu gün imzalanmış sazişin sayəsində məhsuldar əməkdaşlığımız daha da dərinləşəcək".*

Xatırladaq ki, Azərbaycanın təhsil naziri Emin Əmrullayev Gürcüstana rəsmi səfəri çərçivəsində ölkənin təhsil və elm naziri Mixeil Çxenkeli ilə görüşüb.

Nazirlər təhsil sahəsində ikitərəfli əməkdaşlığın inkişafı və gücləndirilməsi məsələlərini müzakirə ediblər.

Görüşdən sonra Azərbaycan və Gürcüstanın təhsil nazirlikləri arasında təhsil sahəsində əməkdaşlığa dair saziş imzalanıb.

## TAMAR MAXARAŞVİLİ: "GÜRCÜSTANIN VƏ AZƏRBAYCANIN TƏHSİL NAZİRLİKLƏRİ ARASINDA ÇOX SIX ƏMƏKDAŞLIQ QURULUB"

*"Gürcüstan və Azərbaycanın təhsil nazirlikləri arasında çox sıx əməkdaşlıq qurulub. Biz Azərbaycanla təhsil sahəsində münasibətlərin daha da yaxşılaşdırılması üçün daha çox addımların atılması üzrə hazırlığımızı hər zaman ifadə edirik".* Bu fikirləri Gürcüstanın təhsil və elm nazirinin birinci müavini Tamar Maxaraşvili jurnalistlərə açıqlamasında deyib.




O bildirib ki, Azərbaycan təhsil nazirinin Gürcüstana rəsmi səfəri təhsilin müxtəlif səviyyələrindəki gələcək münasibətlərlə bağlı planları müzakirə etməyə imkan verdi.

*"Aparılmış müzakirələr və keçirilmiş görüşlər çox maraqlı oldu. Biz Gürcüstanda fəaliyyət göstərən azərbaycandilli məktəblərdə də görüşlər təşkil etdik. Təhsil ocaqlarında cari məsələlərin müzakirəsi baş tutdu və təhsilin keyfiyyətinin artırılması üzrə birgə mümkün planları tutduq",* - T.Maxaraşvili bildirib.

## AZƏRBAYCANIN TƏHSİL NAZİRİ GÜRCÜSTANDA MÜZAKİRƏ ETDİYİ MƏSƏLƏLƏRDƏN DANIŞIB



Azərbaycanın təhsil naziri Emin Əmrullayev Gürcüstana üçgünlük rəsmi səfəri çərçivəsində apardığı müzakirələri məhsuldar kimi qiymətləndirib. Bu barədə o, jurnalistlərə açıqlamasında bildirib.

Nazir Gürcüstandakı azərbaycandilli məktəblərin problemləri ilə də tanış olduğunu qeyd edib: *"Bir daha şahid oldum ki, Gürcüstan-Azərbaycan əlaqələri yüksək səviyyədədir. Dövlət rəsmiləri və yerli mütəxəssislərlə Azərbaycan dili müəllimlərinin hazırlığı, dərsliklərlə bağlı əməkdaşlıq, azərbaycandilli məktəblərin bədii ədəbiyyatla təmin olunması kimi məsələlərlə bağlı maraqlı müzakirələr aparıldı. Belə nəticəyə gəldik ki, məsələlərin həlli Azərbaycanın Təhsil Nazirliyi və ali təhsil müəssisələrinin iştirakı ilə mümkün ola bilər. Hər iki ölkənin təhsil nazirliklərinin nümayəndələri bu istiqamətdə imzalanmış saziş çərçivəsində daha konkret addımlar ata biləcəklər".*

E.Əmrullayev vurğulayıb ki, Gürcüstanın Təhsil və Elm Nazirliyi ilə daha sıx əlaqələrin qurulması, təhsil və elm sahəsində əməkdaşlığın daha yaxşı koordinasiyası üçün bu ölkədə Azərbaycanın Təhsil İnstitutu və ya digər dövlət qurumunun nümayəndəsinin təyin olunması məsələsinin də nəzərdən keçirilməsi mümkündür.

Təhsil naziri əlavə edib ki, müzakirələr zamanı Azərbaycanla Gürcüstan arasında elm adamları və tədqiqatçıların mübadiləsi, yay məktəblərinin təşkili məsələlərinə də toxunulub: *"Aprel-may aylarında gürcüstanlı alimlərin Azərbaycana səfərinin təşkili də təklif olunub. Bu səfərin baş tutacağına ümid edirəm. Azərbaycanlı və gürcü gənclər arasında mübadilənin bir az da artırılması təklifini də irəli sürdük. Fürsətdən istifadə edib həmkarlarıma tələbə gəncləri Azərbaycana daha çox göndərməyi, Gürcüstanın ictimaiyyət nümayəndələri və alimlərinin, gənclərinin "Şuşa ili" çərçivəsində işğaldan azad olunmuş torpaqlarımıza daha çox səfərlərinin təşkil olunmasını da təklif etdim. Bu təşəbbüslərin həyata keçəcəyinə inanıram".*

*Mənbə:report.az*

## PEDAQOQLARIN VƏ MÜƏLLİM OLMAQ İSTƏYƏNLƏRİN 2022-Cİ İLİN YAYINDA NEÇƏ İMTAHAN VERMƏK HÜQUQU VAR?

2022-ci ilin yayında müəllim kompetensiyasının təsdiq edilməsi üçün imtahanlar keçiriləcək. Sistemdə olan müəllimlər, eləcə də müəllim olmaq istəyənlər imtahan verə biləcəklər. Fənn imtahanından əlavə bu il xüsusi müəllimlər üçün də imtahan keçiriləcək.

Yenilik odur ki, ikillik gözləntidən sonra baş və aparıcı müəllimlərə statuslarını yüksəltmək imkanı veriləcək və onlar müvafiq imtahan verəcəklər. Aparıcı və mentor müəllim olmaq istəyənlərin imtahanı peşə bacarıqlarından ibarətdir.

*"Etaloni.ge" Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzə sualla müraciət edib:*

**İşləyən baş müəllimin 2022-ci ilin yayında bir neçə imtahan vermək hüququ varmı? Məsələn, xüsusi müəllim, həmçinin aparıcı və mentor statusları üçün keçirilən imtahanda iştirak edə bilərmi? Keçid eynimi olacaq? Bundan əlavə, işləyən müəllim paralel olaraq başqa fənn imtahanı verə bilərmi?**

"Naec"dən bildiriblər ki, imtahanlarla bağlı məlumat qeydiyyat başlayan kimi yayımlanacaq. Keçidlə bağlı isə dəyişikliklər planlaşdırılmır. Güman ki, fənn və xüsusi müəllim imtahanına kimlərin buraxılacağı baxımından da dəyişikliklər olmayacaq.

Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz imtahana qeydiyyatları mart ayında elan edəcək. Ona qədər isə müəllim və müəllim olmaq istəyənlərin neçə imtahana girmək hüququnun olmasına ötən illərin məlumatına istinadən cavab verəcəyik.

**Kim fənn imtahanında iştirak edə bilər və iki ya daha çox fənn imtahanına qeydiyyatdan keçmək mümkündürmü?**

İşləyən müəllimlər, eləcə də müəllim olmaq istəyənlər fənn imtahanında iştirak edə bilər. Aplikantın yalnız bir fənnə qeydiyyatdan keçmək hüququ var. Növbəti il isə başqa fənn imtahanını da verə bilər. Eyni ildə bir neçə imtahan vermək yolverilməzdir.

**Kimin aparıcı və mentor statusu üçün imtahanda iştirak etmək hüququ var?**

Qeyd olunan imtahan 2022-ci ildə ilk dəfə keçirilir. Fənn imtahanında 50 %-lik maneəni aşmış, yalnız baş və aparıcı statusu olan müəllimlərin imtahanda iştirak etmək hüququ var. Hələ məktəbdə işləməyən şəxs imtahana qeydiyyatdan keçə bilməz.

**Müəllim olmaq istəyən şəxsin neçə imtahan vermək hüququ var?**

Müəllim olmaq sitəyən şəxsin 2 imtahana qeydiyyatdan keçmək hüququ var. Bunlar: xüsusi müəllim və fənn imtahanıdır. Eyni vaxtda bir neçə fənn imtahanı vermək hüququ yoxdur. Həmçinin müəllim olmaq istəyənlər aparıcı və mentor statusu qazanmaq üçün imtahanda iştirak edə bilməyəcəklər.

Fəaliyyət göstərən müəllim və ya müəllim olmaq istəyən şəxs fənn imtahanından əlavə xüsusi müəllim imtahanında da iştirak edə bilərmi?

Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin məlumatına əsasən, xüsusi müəllim imtahanında hər kəs iştirak edə bilər, həmçinin pedaqoqlar da. Xatırladaq ki, yalnız imtahanı vermək kifayət deyil. Xüsusi müəllim olaraq işləmək üçün təhsili təsdiq edən sənəddə "müəllim" və ya "xüsusi müəllim" yazılmalıdır.

**Fəaliyyət göstərən müəllimin neçə imtahanda iştirak etmək hüququ var?**

İşlə təmin edilmiş statuslu müəllimin hüququ var ki, statusunu yüksəltmək üçün, eləcə də xüsusi müəllim və fənn kompetensiyasını təsdiq etmək üçün müvafiq imtahanlara qeydiyyatdan keçsin. Ancaq qeyd etdiyimiz kimi, pedaqoq aparıcı və mentor statusu üçün imtahanda fənn imtahanında 50 %-lik baryeri aşmış olarsa iştirak edə bilər.

***"Etaloni.ge" saytından götürülən məlumatları gürcü dilindən Aynurə ƏLİYEVA tərcümə edib***

# ADAPTASİYA



Biologiyada adamptasiya deyilən termin var – hər bir canlı yaşadığı şəraitə zamanla uyğunlaşır, adaptasiya olunur. Bəzən dözülməz olsa belə bu zaman təbiət seçir – güclülər qalır, zəiflər sıradan çıxır. Buna da təbii seçmə deyib Darvin. Bir də var süni seçmə. Təbii seçməni Allah, süni seçməni bəndə yaradır. Yox, bunu Darvin demədi.

Artıq həyatın çək-çevirli üzlərini xeyli görmüşəm. Dərd-azar bir yana, amma inanmazdım ki, viruslu, pandemiyalı yaşam da həyat tərzimizə çevriləcək.

Xatırlamaq belə xoş deyil: karantin, qapanma, xeyir-şər qadağası, hətta ölülərimizi belə "urvatlaya" bilmədik. İlk halda onlayn ağlaşmalar ağlımıza gəlmədi, sonralar əhliləşdik, yaslarda canlı yayım açdıq, əcnəbi ölkələrdəki qohumlar hətta onlayn ağı deməyə başladılar. Nişanlılarımız bir il sonra ailə içi gizlicə gəlin donu geyib evdən-evə köçdülər, komsomol toyundan da sadə. Get-gedə təkmilləşdik, toy da elədik, bölük-bölük.

Tibbi qoruyucu maskalar müxtəlifləşdi – gah reklam, gah bayraqlar, gah da geyimə uyğunlaşdırdıq. Bax, beləcə hər şeyə uyğunlaşdıq. Qadağalardan ağıllı bəhrələnənlər olsa belə, sadələşdirilmiş yollarla tərzimizə qayıtsaq da, qazandığımız yeni qaydalar həyatımıza daxil oldu.

Yeni yaşamımızda mütləq surətdə maskalarımız var. Hansısa qapalı məkanda olan yas yerlərinə getməmək bəhanəmiz. Bu bəhanələr ailəmizə maddi dəstək olsa da içimizdəki bir bağlılıq telimizi qırdı, artıq "dərdinə şərik deyiləm" sindromunu genimizə yüklədi.

COVID "delta"ya keçdi, indi də "omikron" gəldi. Artıq yeni mutasiyalar gəlsə də kimsə narahat olmayacaq. Heç həkimə də ehtiyac yoxdur; "ringer", vitamin, ürək möhkəmlədən ampula, bir də sakitləşdirici, 2-3 "sistem", vəssalam, xəstəlik keçdi. Yayılma sayı da kimsəni qorxutmur. Nolsun, keçib gedəcək.

Artıq elə vəziyyət yaranıb ki, xəstələnməyənə ətrafın belə birtəhər baxır, yəni deməli sən yaxşı yoldaş deyilsən, kimsəylə yoldaşlıq etmirsən ki, sənə də yoluxa. Yoluxmusansa, deməli əsl dostsan. Qulağımız öskürək səsinə elə alışıb ki, havadakı meh kimi qəbul edirik, heç fərqində olmadan söhbətimizi davam edirik. Bax belə...

Korona, çəkil aramızdan!

Sən istədin bizə anladasan ki, həyatın başqa üzü də var, haqqı tanıyın! Biz qanmadıq. Yenə də oğru, əyri, vicdansız öz çarxını çevirir, zamana uyğun yollar tapıb. Sənin də insafın olsun! Çəkil, get! Hansı ştamını yollasan biz düzələn deyilik. Görmürsən, olan kasıba olur. Vallah kasıba qalan onlayn ağlaşmalardır. Yenə nə edir varlı edir. Biz insaflı ola bilmədik, Korona, sənin insafın olsun! Çıx get aramızdan!

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# ANALAR GÜNÜ



Bu günlərdə, sözsüz ki, bütün dünyanın gözü baş verən Rusiya-Ukrayna savaşına dikilib. Bütün mətbuat, qəzet, jurnal, telekanallar, hətta başı çıxan-çıxmayan hər kəs öz düşüncəsinə görə baş verənləri yorumlayır, hər hansı tərəfi dəstəkləyir və ya lənətləyir. Hətta "yeriyən küçə qəzetləri" sayılan boş-bekar insanlar belə artıq bütün dedi-qoduları buraxıb, ancaq və ancaq siyasətdən danışır. Avtobus dayanacaqları, çayxanalar "siyasətçilərlə" dolub daşır. Yeddidən yetmişə hər kəsin dediyi, dinlədiyi ancaq bu haqdadır. Ömründə bir dəfə də olsun "xəbərlər"ə baxmayan hər kəs indi can dili ilə "xəbər" saytlarını izləyir. Mənə elə gəlir, hər kəs əlini vicdanına qoyub özünəməxsus şəkildə olub-bitəni qiymətləndirməyə qadirdir bu günlərdə...

Hər halda otursam indi mən də dünyanın uzaqgörən siyasətçilərinin atdıqları bu addımları müzakirə edə bilərəm, təbii ki, anlayışım qədər, öz düşüncələrimlə. Amma bu haqda kifayət qədər yazılar yazılıb və hələ uzun müddət də yazılacağını umuram. Ona görə də tamam fərqli bir mövqedən baxacağam bu gün.

Necə deyərlər, özümü anlayandan, loru dildə desək, özümü qanandan bəri tarixi böyük səhvlərə dirənən dırnağarası bayramları qeyd etməməyə çalışıram (23 fevral kimi). Ancaq bununla yanaşı, keçirilməsi qəbahət sayılmayan günlərdən də kənar qaçmıram. Məsələn, Respublikamızın birinci prezidenti Zviad Qamsaxurdiyanın qərarı ilə bayram statusu verilmiş 3 Mart Analar günü kimi. Gürcüstanda Analar günü, yəni Gürcüstanda yaşayan dinindən, dilindən, irqindən və milli mənsubiyyətindən asılı olmayaraq bütün anaların bayramı. Əlbəttə ki, ana bütün insanlığın ən alisi, ən ucası, ən qiymətlisidir. Dünyanın misli-bərabəri olmayan varlığı, yaranışın əsl möcüzəsi anadır. Ana o qədər müqəddəsdir ki, hətta vətəni də onun adı ilə "Ana vətən" adlandırırlar. Əsrlər boyu böyük şairlər, yazıçılar ana haqqında minlərlə əsərlər yaratsa da, anaya ən gözəl qiyməti Məhəmməd peyğəmbər (s.a.s.) verərək, "Cənnət anaların ayaqları altındadır" demişdir. Analara bir gün deyil, hər gün dəyər verilməlidir, ancaq bəlkə də bu yaxşı mənada bir bəhanədir, ən azından 365 günün bir gününü onlara ayırmamız üçün.

Hər il 3 Mart günü anamı sevindirmək üçün tələsirdim, aldığım hədiyyəni bəzən gizlədə-gizlədə birtəhər ələ keçmədən 3 Marta saxlayırdım. Bu il də öz-özümə var-gəl edərkən, bu lənət olmuş müharibə başladı. Gecəli-gündüzlü dəqiqədəqiqə izləməyə başladım. Eyni ilə 44 günlük Vətən Müharibəsindəki kimi...

Xəbərləri izləyərkən analar gördüm, şəhid düşmüş övladının acı xəbərini telefonda düşmən əsgərin dilindən eşidən analar gördüm, yeraltı keçidlərdə körpəsini bağrına basıb gözləri Haqqa dirənən analar gördüm, evindən yığışmağa belə macal tapmamış yollarda qalan, necə deyərlər, hara belə gedəcəyini bilməyən, çarəsiz analar.

Hansı mənfur düşüncə, hansı vəhşi istək, hansı mənasız qürur üzr səbəbi ola bilər ki bu acınacaqlı səhnəyə, bu günahsız millətin göz yaşlarına?! Əsl mənada sözün bitdiyi yerdir, yazılmalı, deyilməli çox şey var, ancaq qələm acizdir boğazda düyünlənən qəhəri boğmağa və bu hissi düzgün ifadə etməyə.

Yalnız bunu deyə bilərəm ki, bəli, "Cənnət anaların ayaqları altındadır", amma belə bir insanlıq, belə bir yaradılış nəinki anaların ayağı altına, heç atılan dırnağına da layiq deyil!

**Lətafət KƏRİMOVA**
*Mollaoğlu orta məktəbinin tarix fənni üzrə baş müəllimi*

# TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ

## Nə vaxtsa ağı qaradan seçməyin vaxtı gələcək

## (Türk folklorunun estetikası və mənəvi əqidəsi)

Elizbar CAVELİDZE

*(əvvəli ötən sayda)*

Qəbul edilən qaydaya və bərqərar olunan ənənəyə uyğun olaraq yuxarıda müzakirə olunan bu giriş bu mədh-tərifdən sonra başa çatdırılmalı idi. Lakin, göründüyü kimi, sonralar qadın simalarının tipologiyası əlavə olundu ki, bu da girişin kompozisiya çərçivəsini pozur. Mənim fikrimcə, mövcud qaydanın pozulmasına səbəb o olmalıdır ki, Dədə Qorqud rəvayətlərində diqqətəlayiq yerlərdən birini tutan elə qadınların öz mövzusudur. Deyərdim ki, Oğuz xalqının həyat və əxlaq məcəlləsinin əhatə olunduğu giriş də bu məcəllənin əsas komponentlərindən olan qadın problemi əks olunmalı idi. Buna görə də girişin müəllifi, istərsə də həmmüəllifi bu mövzuya xələl yetirmiş və mövcud ədəbi qanunu heçə saymamaqla girişi ona bağlamış və bununla bu rəvayəti bir daha başa çatdırmışdır. Halbuki, bir mühüm fakt da diqqətəlayiqdir: Bu son hissəni –qadınların tipologiyasını Dədə Qorqud nəinki bizə təqdim edir, eləcə də öz xanına filan ozan qadınların müsbət, istərsə də mənfi növlərini xarakterizə edir. O da diqqətəlayiqdir ki, qəhrəmanlıq eposunda təsvir olunan qadın simaları filan ozanın tipologiyasına uyğun gəlir ki, bu da, eləcə də ondan xəbər verir ki, girişin sonunda son hissə sonradan əlavə olunub. İstər elə olsun, istər belə, bu naməlum ozanın qadınların xarakterizə etməsi müəyyən mənada bu məsələyə qarşı türk xalqının bir növ münasibətində öz əksini tapmalıdır. Bu epiloqa toxunmağımı məqsədyönlü hesab edirəm. Bir sözlə, ozanın baxışı ilə qarılar dörd dürlüdür:

**"Birisi solduran sopdur.**
**Birisi dolduran topdur.**
**Birisi evin dayağıdır,**
**Birisi necə söylərsən, bayağıdır"**
(K.D.Q., səh. 32, D.K.K., səh. 2;O.D.D.K.K. səh. 31):

Sonra bu soydan olan qadınların xasiyyətmanəsi verilib: *"Evin dayağı" oldur ki, yazıdan-yabandan evə bir qonuq gəlsə, ər adam evdə olmasa, ol anı yedirər-içirər, ağırlar-əzizlər, göndərər. Ol Ayişə, Fatimə soyudır.*

*İkinci soydan olan "ol kim, solduran sopdur, sabadanca yerindən uru durar, əlin-yüzin yumadan doquz bazlammac ilən bir külək yoğurd gəvəzlər, doyunca tıqa-basa yer, əlin bögrinə urar, aydır: "Bu evi xarab olası! Ərə varalıdan bərü daxı qarnım doymadı, yüzüm gülmədi, ayağım başmaq, yüzüm yaşmaq görmədi", -deyər". "Nolaydı, bu öləydi, birinə dəxi varaydım, umarımdan yaxşı-uyar olaydı", - deyər... Ocağına buncılayın övrət gəlməsün.*

*Üçüncü, "ol kim, dolduran topdur, dəpidincə yerindən uru durdı, əlin-yüzin yumadan obanın ol ucından bu ucına, bu ucından ol uca çarpışdırdı, quv quvaladı, din dinlədi, öylədəncə gəzdi, öylədən sonra evinə gəldi, gördi kim, oğrı köpək, yekə dana evini bir-birinə qatmış, tavuq komasına, sığır damına dönmiş, qonşularına çağırar ki, Yetər! Zəlihə! Zübeydəl Üruveydə-can, qız-can! Paşa! Ayna Mələk! Qutlu Mələk! Ölməgə-yitməgə getməmişdim, yatacaq yerim genə bu xarab olasıydı, nolaydı bənim evimə bir ləhzə baqaydınız "Qonşu haqqı-Tafırı haqqı" deyü söylər. Bunun kibinin, xanım, bəbəkləri yetməsün. Ocağına bunun kibi övrət gəlməsün.*

*Nəhayət, ol kim, "necə söylərsən, bayağıdir: ötə yazıdan-yabandan bir udlu qonuq gəlsə, ər adam evdə olsa, ana disə ki, dur ətmək gətir, yiyəlim, bu da yisün, disə bişmiş ətməgin bəqası olmaz, yimək gərəkdir, övrət aydar: "Neyləyəyim, bu yıqılacaq evdə un yoq, ələk yoq, dəvə dəgirməndən gəlmədi" - deyər". "Nə gəlürsə, bənim sağrıma gəlsün", - deyü əlin götinə urur, yönin anaru, sağrısın ərinə döndürür. Bin söylərsin, birisini quymaz, ərin söziri qulağıma qoymaz. Ol, Nuh peyğəmbərin eşəgi əslidür. Andan dəxi sizi, xanım, Allah saqlasun! Ocağınıza buncılayın övrət gəlməsün".*

Bu qadınlarım tipologiyası barədə nəyi demək mümkündür? Hər şeydən öncə, nəyisə artıq qeyd etdim, o, türk xalqının Orta əsrlərin gerçəkliyində mövcud olan görüş dairəsini əks etdirir. İkinci də, bu, bədii olaraq canlandırılmış müxtəlif xüsusiyyətlərə malik qadının obrazıdır və olduqca çox elastik şəkildə onların təbiəti verilmişdir. Lakin, elə buradaca qeyd etməliyəm ki, bu cür soydan olan qadınlar erkən vaxtlardan bəri mövcud idilər və bu gün də mövcuddurlar. Halbuki, unutmamalıyıq ki, qadın dəyərləndirilib, hər şeydən öncə, onunla ki, necə ailəcanlıdır, necə evdardır, öz ərini necə sevir və ən başlıcası, necə qonaqpərvərdir. Göründüyü kimi, oğuzlar bu sonuncu xüsusiyyətə böyük diqqət yetirirdilər.

Sonda, yuxarıda qeyd etdiyim kimi, "Dədə Qorqud"un girişində əla elastiklik və "kəsə demək" prinsipi ilə islamın əsas doktrinasının məğzi, oğuzların ən qədim həyat tərzləri, onların etik-estetik görüş dairələri, onların döyüşə aid baxışları barədə, düşmən və dost barədə, onların ana-ovlad və ümumiyyətlə, quşların, istərsə də heyvanların (maral, vəhşi eşşək, dəvə, tülkü, torağay, at, qatır və sair.) insanların xüsusiyyət və qabiliyyəti barədə baxışları verilib. Başlıcası odur ki, təhkiyə, istərsə də mahnılar əla sadəliyi ilə və eyni zamanda emosiya təzyiqinin gücü ilə xarakterizə olunur ki, bunu da oncə müqayisələr və təşbehlər, ahəngdar dinamika, söz başlanğıclarının, istərsə də sətrin sonunun afikslərinin, sözlərinin, cümlələrinin təkrarı şərtləndirir. Bu barədə də aşağıda daha geniş söhbət etməli olacağıq və burada bir daha dayanmıram.

İndi isə "Dədə Qorqud"un özünün kompozisiya quruluşuna toxunaq. Bu da ki, artıq qeyd etdiyimiz kimi, 12 boydan ibarətdir və onların motivasiyasını və etik-estetik modusların gözdən keçirək. Oxucunun sezdiyi kimi, yuxarıda mən etik-estetik kateqoriyanı həmişə xatırlayıram ki, bu da Orta əsrlərin xalq, istərsə də klassik bədii ədəbiyyatında etik və estetik kateqoriyalar bir qavrayışın düzənliyində üzərə çıxır və həmin vaxtlar o, etik olduğu kimi, eləcə də estetikdir. Qısası, əxlaqi estetik heyranlığı əhatə edirdi, estetik təməldəcə mənəvini nəzərdə tuturdu. Qısası, qeyri-əxlaqi estetik düzənliyin məkanından qovulmuşdu. Və əgər hər halda qeyri-əxlaqi özünü bürüzə verirdisə, o yalnız kontrast fonunu, qara rəngini yaradırdı, bu rəngin fonunda aydınlığın gözəlliyini daha açıq şəkildə qavrayırıq və yaxud həqiqi gözəlliyi, onun yenilməzliyini hiss edirik.

"Dirsə xan oğlu Buğac xan boyu" başlıqlı birinci hekayətin əsas mövzusu oğlanın anadan olması və ata-oğul, ana-oğulun mənəvi və qan qohumluğu əlaqələridir. Lakin xeyirxah əlaqələrdə xainlik özünü bürüzə verən kimi, yaxud aydınlığa qaranlıq kölgə salan kimi labüd şəkildə bədbəxtlik baş verir. Məhz elə bu aydınlıq və qaranlıq fonunda süjetin və semantik strukturun sınığı bu cürdür:

Xanlar xanı xan Bayındır ildə bir kərə toy edib, Oğuz bəylərini qonaqlayardı. Və onlara qonaqlıq vermək üçün üç çadır: ağ, qırmızı, qara çadır qurdurardı və buyurardı: "Kimin ki, oğlı-qızı yoq, qara otağa qondurun, qara keçə altına döşən, qara qoyun yaxnısından öninə gətürün, yer isə, yesün, yeməzsə, dursun, getsün" - demişdi. "Oğlı olanı ağ otağa, qızı olanı qızıl otağa qondurun, oğlı-qızı olmayanı Allah-taala qarğayıbdır, biz dəxi qarğarız, bəllü bilsün" - demiş idi".

Nə oğlu, nə də qızı olmayan Dirsə xan qara çadıra girməyi əndir etmədi və öz igidləri ilə birlikdə hirslənərək geri qayıtdı. "Qalqubanı, yigitlərim, yerünizdən uru durun, bu qərayib bana ya bəndəndir, ya xatundandır", - dedi.

Dirsə xana xatunu izah edir: Bu nə mənim günahımdır, nə də sənin. Buna görə də məsləhət görür ki, ala çadır qurdursun, Oğuz bəylərini çağırtdırsın, onlara süfrə açsın, acları görsə doyursun, əyni yalın görsə ona əyin-baş alsın, borcluyu borcundan qurtarsın, Tanrıya yalvarsın, Tanrı həvəsə gəlmiş halda bizi yalvarışları duysun, bizə bir oğul verər, - dedi.

Dirsə xan xatununun dediklərinə əməl etdi və Tanrı da onlara oğul verdi ki, bu da tezliklə boya-başa çatdı. Elə bir pəhləvan oldu ki, qara nəhəng buğanı dizə çökdürdü, üstələdi, başını kəsdi. Bu faktı görən Oğuz bəyləri ona ad qoymaq istədilər və Dədə Qorqudu çağırdılar, o da adını Buğac qoydu, taxt da verilməsini buyurdu.

Qəlbi paxıllıqlarla dolu qırx igid: bu nədir, Dirsə xan bizə daha diqqət yetirmir,- dedi. Ona izah etdilər, təlqin etdilər ki, oğlu pislikləri, yaramazlıqları törədən idi və ataya onu uzaqlaşdırmaq qərarını qəbul etdirdilər. Dirsə xan oğlunu ova apardı və oğlu da atasına xoş gəlmək üçün özünü pəhləvan kimi apardı. Həmin qırx igid Dirsə xana təlqin edirdi ki, o səni öldürənə kimi sən onu öldür. Ata da oğluna qıydı və yay oxu ilə onu vurdu... Bu, süjetin əsas kərgahıdır.

Bundan sonra ananın az əskik olmayan maraqlı siması gəlir ki, bu da öz oğlu gözünə dəyməyəndə qəlbi qüsur güman etdi və öz xanına üz tutdu: "İki vardın bir gəlirsən, yavrum qanı? Qara bulduğum oğul qanı?" Dirsə xan cavab vermədi. Yalnız xain igidlər ananı sakitləşdirdilər. Sənin oğlun yaxşıdır, tezliklə gələcək dedilər.

Lakin ananın ürəyi rahatlıq tapmır. Qırx incə belli qızı yanına alıb oğlunu axtarmağa gedir. Yaralı halda onu tapır da, müqəddəs Xızırın sayəsində oğlunu xilas edir...

Gətirilən rəvayətin epizodu, hər şeydən öncə, onunla maraqlıdır ki, uşağın və ələlxüsus oğulun doğulması barədə oğuzların ənənəyə, istərsə də qaydaya çevrilən görüş dairəsini bizə təqdim edir, buna da uyğun olaraq nə oğlu, nə də qızı olmayan Tanrı tərəfindən qarğış edilmişdir və oğlu və qızı olmayanları Oğuz bəyləri lənətlənmiş hesab edirlər. Burada gen və cinsin yayılması primatı özünü göstərir, lakin eyni zamanda oğuzlar igidliyin və qəhrəmanlığın davamçısı olaraq oğula üstünlük verirlər. Müvafiq olaraq oğul doyüşdə və güləşdə özünü göstərərsə onda igidə çevrilir. Burada yenə də bir təqdirəlayiq ənənəvi görüş dairəsi özünü bürüzə verir: oğuzlar oğul əgər qəhrəmanlıq göstərərsə, düşmənin başını vurarsa və ya da qorxunc yabanı heyvanı məğlub edəndə, yalnız bu zaman ona ad verirlər və igid kimi tanıyırlar. Verilən konkret halda Dirsə xanın, meydanda uşaqlarla oynayan tamamilə yeniyetmə olan oğlu başqa uşaqlar kimi qəzəblənmiş qara buğadan ehtiyat etmir və böyük çəkişmədən sonra möhkəm yumruqla güclü zərbə endirərək onu yerə yıxır və boynunu qırır. Yalnız bundan sonra ona ad verirlər ki, bu da öz-özlüyündə onun igidliyinin tanınmasına bərabər idi. Qısası, qəhrəmanlıq göstərən oğul atanın fəxri idi, ləyaqətsiz, qorxaq isə yalnız atasını utandırırdı.

"Dədə Qorqud"un bədii boyalar qamması da müəyyən rəmzi fikri kəsb edir. Qara rəng bədbəxtliyin və ləyaqətsizliyin əksetdiricisidir. Buna görə, Bayındır xan oğlu-qızı olmayanı qara çadırda qara keçə altına döşətdirir, qara qoyun yaxnısını təklif edir. Müəyyən olunduğu kimi, Oğuz bəyləri üçün bu, bir növ təhqiredici idi... Ağ rəng necə bir ilahi parlaqlıq, bəyəniləsidir. Buna görə, oğlu olan kəsə ağ çadırda, qızı olana qırmızı çadırda süfrə açırlar. Qırmızı rəngin konkret olaraq nə demək olduğu çətin izah olunasıdır. Eləcə də bizə "qırmızı rəngli dəvə" tez-tez rast gəlir ki, bu da onun fərqliliyini qeyd edir. Əgər qızı olan valideynin qırmızı çadırda qonaq edilməsini ümumiləşdirsək, şüuraltı fikrə görə, qadının, uşağı doğanın və valideynin, gərək ki, əlahiddə funksiyası deməkdir ki, bu da, eləcə də cinsin, genin qorunub saxlanılmasının əsaslarından biridir. Ümumiyyətlə, köçəri tayfalarda nikah zamanı çox hallarda qırmızı rəngə ayıbsızlığın göstərici-xəbərverici kimi böyük əhəmiyyət verirlər.

Bundan başqa bu rəvatyətdə ata-oğul, ana-oğul münasibətləri də ön plana çəkilib.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR

## SOSİUM

## 11. HOLLAND TƏBƏSSÜMÜ



*(əvvəli ötən sayda)*

Qarşılaşdığın əksər hollandın sənə bəxş edəcəyi ən gözəl şey təbəssümdür. Heç nə verə bilməsə də, holland insanı sənə bir təbəssüm payı ayırmağı heç vaxt sonraya saxlamaz. Həmin an sənə bəxş edər.

İnsan hər yerdə insandır. Arzuları, ağrıları, sevincləri, qorxularıyla. Sadəcə keçdiyi tarixi yol, yaşadığı coğrafiya, düşdüyü mühit insanların fərqli olduğu qənaətinə gəlməmizə, bəzən də düzgün nəticə çıxarmamağımıza nədən olur. İstənilən cəmiyyətin yaxından müşahidəsi isə, bizim yanıldığımızı, həmin toplum barədə səhv təsəvvürlərə malik olduğumuzu təsdiqləyir. Mən bu qənaətlərin, təsəvvürlərin yanlışlığına Niderlandda yaşadığım kifayət qədər böyük zaman dilimində – 15 ayda bir daha inandım.

Hələ tələbəlik illərindən Bakıda oxuyan zəncilərlə tez-tez qarşılaşdığımı, onlara bir qədər təəccüblə, bir qədər də qorxu ilə baxdığımızı yaxşı xatırlayıram. Niderlandda hər gün rastlaşdığım, təmasda olduğum onlarla afrikalının da bizi kimi insan olduqlarını, yalanı sevmədiklərini, verdikləri sözə əməl etmək üçün bütün çətinliklərə mərdliklə dözdüklərini, ailələri üçün hər cür zəhmətə sinə gərdiklərini, qloballaşan dünyada öz milli adət-ənənələrini qorumaq üçün mücadilə etdiklərini gördükcə sovet dönəmindən beynimdə formalaşmış təsəvvürlərə görə, xeyli xəcalət çəkdiyimi də demədən keçmək istəmirəm.

Niderland insanının ilk baxışda fərdiyyətçi, özünə qapalı və ya tənhalığa meylli olduğu barədə düşünə bilərsən. Ancaq bir qədər tanışlıqdan sonra, bu fikrini, bu ilkin qənaətini kənara qoymalı olursan. Bu cəmiyyətin hər bir fərdinin ailəsinə, dost-tanışına vaxt ayırdığını kənardan müşahidə etmək o qədər də çətin deyil. İlkin uşaqlıqdan sosial mühitə düşən bu fərdlər kollektivlə, ətrafdakılarla ünsiyyət qurmağa adətkardırlar. Müxtəlif kütləvi tədbirlərdə, bayramlarda, idman yarışlarında onların necə əlbirliyi ilə hərəkət etdiklərini görmək mümkündür. Ancaq bunlarla yanaşı hər bir insan özünə vaxt ayırmağı, özü ilə baş-başa qalmağı, yalnız özünə aid olan maraqların təmini üçün təklənməyi də yaddan çıxarmır. İdman meydançasında top oynayan bir uşağın məşqçinin ona tapşırdıqlarını təkbaşına öyrənmək, futbol vərdişlərinə fərdi qaydada yiyələnmək istəyi başa düşüləndir. Bağçasına təkcə qulluq edən, bir kənara çəkilib kitab oxuyan, nohur kənarında su quşlarına yem verərək, onlarla söhbət edən insanları biz adamayovuşmazlıqda suçlaya bilmərik. İnsanın hərdən özü ilə baş-başa qalması gərəkdiyini biz öz təcrübəmizə dayanaraq da, söyləyə bilərik. Çayxanalarda saatlarla boş vaxt keçirməkdənsə, öz-özüylə tək qalmağın, öz-özüylə dərdləşməyin nəyi pisdir?

İnsanların mağazada alış-veriş edərkən, bağçasında çalışarkən öz-özünə danışması, öz-özü ilə məsləhətləşməsi adi haldır. Bu cür səsli düşüncə tərzi bizdə nadir hadisədir. Nədən ki, biz belə adamların başının o söz olduğunu düşünürük. Mağazaya alış-verişə tək gəlmiş holland özündən nədən nə qədər alması barədə soruşub, özü də cavab verə bilər. Hollandın öz-özü ilə mükaliməsi o qədər təbii görünür ki, kənardan baxanlar bunun mütləq belə olması gərəkdiyini düşünürlər. Məsələn, holland müştəri özünün "alma alaqmı-almayaqmı" sualına "alaq, soyducuda yer var" kimi bir cavab verməsi ətrafdakılar tərəfindən normal qarşılanır. Bu mənzərəni müşahidə edən bir əcnəbi, elə biri də mən, hollandın daxili məninin həmişə oyaq olduğunu, onun öz səsilə suallarını cavablandırdığını düşünə bilər. Hərdən bizim də özümüzlə dialoqumuz olmurmu? Olur. Amma biz daxili mənimizin səsini kiminsə eşidəcəyindən ehtiyatlanıb, səsimizi içimizdə boğmağa tələsirik. Hollandlar isə daxili məninə sərbəstlik verir, onu kiminsə eşitməsindən əndişələnmir.

Niderlandda fit çala-çala ərzaq seçən, özünə əyin-baş bəyənən yüzlərlə adama rəst gələ bilərsiniz. Qadın, kişi fit çala bilər. Ətrafdakıların bir qulağının eşidib, bir qulağının eşitməyəcəyi tərzdə çalınan bu fitin insanın fikrini toparlaması məqsədilə çalındığı da bəllidir. Sözarası deyim ki, rəhmətlik nənəm qız uşaqlarını fit çalmağa qoymurdu, saçınız tökülər deyirdi. Oğlan uşaqları fit çalanda, fişqırıq çalanda yaşlılarımız evin bərəkətinin qaçacağını söyləyirdilər.

Həqiqətin ortaya çıxması üçün mübahisəsevərlik hollandların xarakterik xüsusiyyətlərindəndir. Sözü göyərtmədən, qarşısındakının haqqını çeynəmədən mübahisə edən insanları müşahidə etmək çox xoşdur. Kiminsə söyüş söydüyünü, qarşısındakını təhqir etdiyini görməzsən. Senzuradan kənar, invektiv söz bu cəmiyyətə yaddır. Kiminsə əl-qol ataraq, hansısa problemi həll etməyə çalışdığını müşahidə etməzsən. Yumruqla, bıçaqla nəyisə çözməyə çalışmazlar. Bunun üçün dövlətin qanunlarının olduğunu bir an da olsun unutmazlar. Holland haqsızlığa dözməz. Yerindəcə buna qarşı çıxmağın lazım olduğunu bildiyindən müdaxiləsini sonraya saxlamaz. Koronavirusa görə insanların 1,5 metrlik məsafə saxlamağa məcbur qaldıqları o məşum günlərin birində gül mağazasına girmək üçün bayırda növbəyə durmuş adamlar arasında baş verən kiçik münaqişəni misal kimi verim. Növbəni pozan, sir-sifətindən hindli olduğu bilinən bir kişinin hərəkətinə bir holland qadının irad tutması az qala böyük münaqişəyə çevriləcəkdir. Nədən ki, hindlinin əsəbi davranışı, qaba hərəkəti, kobud sözləri münaqişəni daha da qızışdırdı. Dəliyəm, gücluyəm buna deyirlər. Növbədə duran yaşlı hollandın onu sakitliyə dəvət etməsi belə hindlini sakitləşdirmədi. O, əl-qolunu ölçərək, yenə də işində idi, bildiyini babasına vermək istəmirdi. Məsələyə heç bir aidiyyatı olmayan, kənardan keçən gənc bir hollandın sərt şəkildə ətrafdakılara hörmət etməsini tələb edən dəvəti hindlinin oradan uzaqlaşması üçün yetərli oldu. Elə həmin gün digər bir hadisə ilə də qarşılaşdım. Əsasən ucuz mallar satılan, Niderlandda böyük şəbəkəyə malik, əsasən aşağı təbəqənin tez-tez üz tutduğu "Action" mağazasında kassa önündə 1,5 metrlik məsafəni saxlamaqla ilgili, Niderlanda xas olmayan nizamsız bir növbə var idi. Mən alış-veriş arabamla kassaya necə yaxınlaşacağımı düşünərkən, saçları qar kimi bəyaz yaşlı bir holland təkidlə məni irəli buraxdı və mən bir anda kassanın qabağına düşdüm. Həmin adama bir neçə dəfə təşəkkür etməyi də unutmadım. Bu misalla hollandların güzəştə getmək, yardım etmək kimi xüsusiyyətlərə də malik olduqlarını vurğulamaq istəyirəm.

Niderland insanı yalanı sevməz. Ümumiyyətlə, bu cəmiyyətdə yalana yer yoxdur. Yalançı cəmiyyətin qeyri-qanuni övladıdır. Üzürlü bir səbəb olmadan verdiyin vədi yerinə yetirməmən hollandın səni həyatından kəsib atacağı anlamına gələcək. Bu vaxta qədər münasibətlərinizin yaxşı və ya pis olması da köməyinə gəlməyəcək. Bilərəkdən danışdığın yalan, etdiyin saxtakarlıq bu münasibətlərin sonu deməkdir. Sənə heç bir izahat vermədən, sənin yalan danışdığın barədə sənə bir kəlmə söyləmədən, dostun olsa belə, holland münasibətlərinizin kəsilməsinə qərar verəcək. Səndən ayrılmaq onun üçün çətin olsa da, holland bu addımı atmağı sonraya saxlamayacaq. Sən də, insansan, yəqin ki, hesabını götürüb, özünə çəkiləcək və yalanlardan islah olmağa çalışacaqsan. Və bu, zənnimcə, ən doğru yöntəmdir.

Niderland insanı yardımsevərdir. Fürsət düşərkən sənə yardımçı olacağını, bunu adi bir insani borc kimi məmnunluqla edəcəyini də qeyd edim. Evindəki artıq ona gərək olmayan, istifadə etmədiyi, amma yararlı bir əşyanı, geyimi, uşaq arabasını sənə pulsuz vermək holland üçün adi bir şeydir. Düzdür, belə əşyaları satanlar da var. Alqı-satqı elanlarında yüzlərlə əşyanın pulsuz təklif edildiyini öz gözlərinlə görə bilərsən. Bunun üçün internetə girmən yetərlidir. Ölkənin istənilən yerindən uşaq geyimlərini, oyuncaqlarını, arabalarını, velosipedlərini poçt vasitəsilə öz hesabına sənə göndərən adamlara da rast gələ bilərsən. Hollandlar bununla həm başqalarına yardım edir, həm də evlərində onlara mane olan, artıq onlara lazım gəlməyən əşyalardan canlarını qurtarırlar. Gözəl örnəkdir, mənimsəməyə dəyər.

Bir məqamı da qeyd edim. Niderlandda poçt xidməti çox dinamikdir və insanların bu xidmətdən hər zaman istifadə etdiyini görmək olar. Sifarişlərin poçt vasitəsilə göndərilməsi adi haldır. Velosipedli poçtolyonlar vətəndaşların adına gələn bağlamaları gecikdirmədən ünvanlarına çatdırırlar. Evdə kimsə olmasa poçtalyon gətirdiyi bağlamanı qonşulardan birinə təslim edir. Ənənə belədir. Ən maraqlı məqam isə ondan ibarətdir ki, qonşu bağlamanın kimdən, haradan gəldiyini, içində nə olduğunu belə soruşmadan əsil sahibinə təqdim edir. Onun belə marağının olmadığı hər halından bəllidir. Ümumiyyətlə, kimin nə aldığı, nə satdığı, nə apardığı, nə gətirdiyi, kimin evləndiyi, kimin boşandığı bu adamların maraq dairəsindən kənarda baş verən hadisələrdir. Bu cür dedi-qoduları söhbətinin gözünə qatan, manşetə çıxarıb həvəslə tirajlayan bizim toplumdan fərqli olaraq, hollandların söhbətlərinin əsasını texnoloji sahədə, mədəniyyətdə, idmanda baş verən yeniliklər təşkil edir. Adama elə gəlir ki, Niderland cəmiyyətini nə ölkənin daxili, nə də xarici siyasəti maraqlandırmır. Amma əslində bunun belə olmadığı da bəllidir. Nədən ki, hollandların necə vətənsevər olduqları artıq bizə bəllidir. Sadəcə sıravi vətəndaş siyasətlə siyasətçilərin məşğul olduğunu dərk edə bilir, özünün öhdəsinə düşən işi vicdanla yerinə yetirməyə çalışır, əlindən gələni edir, yalançı iddiadan uzaqdır.

Mənim tanıdığım, əslində müşahidə etdiyim deməm daha doğru olar, hollandlar da sevinməyi, təəssüflənməyi, qorxmağı, ağrımağı ən azı bizim qədər bacarırlar, elə bu hisslərini bizi kimi də ifadə edirlər. Bunu onların üz-gözündən oxumaq üçün mütəxəssis olmağa da gərək yox. Göz qəlbin aynasıdır demirlərmi? Elə qarşındakının gözlərinə baxmaqla onun ruhi halının necəliyi barədə nəticə çıxara bilərsən. Aşağıda vermək istədiyim bir-iki örnəklə də bunları anlatmaq niyyətindəyəm.

Holland qadınları da bizim qadınlar kimi, marketdən aldıqları ərzağı, meyvə-tərəvəzi qaldırıb-salmağı, o üzünə bu üzünə çevirməyi, irdələyib seçdikdən sonra almağa üstünlük verirlər. Deyəsən, bu, dünyadakı bütün qadınları ortaq məxrəcə gətirən bir vərdişdir. Görünür bütün qadınların alış-veriş zamanı eyni cür hərəkət etmələri özündə ilkin yığıcı əcdadlarından hansısa əlamətləri yaşatmaqdadır. Birində az, digərində çox.

Avropalı həftəsonlarının – şənbə-bazar günlərinin yaddaqalan olmasına çalışır. Həftəboyu eyni işi görməyin, eyni şeyi təkrarlamağın yaratdığı yorğunluğu, həftəiçi monotonluğu yalnız bu yolla aradan qaldırmağı doğru yol sayır. Uikend elə təşkil olunmalıdır ki, onun abu-havası insanın növbəti həftə ərzində normal işləməsini təmin etsin. Mən istirahət günlərinin səssizliyi barədə başqa bölümdə daha geniş bəhs edəcəyimdən hələlik bu qədər yetər. Bunu ağlınızın bir tərəfinə yazın.

Hollandlar da bayram günlərinə, məsələn, Milad bayramına, Pasxa bayramına xüsusi hazırlıq görürlər. Onsuz da səliqə-sahmanlı olan ev-eşiklərinə əl gəzdirir, bol süfrə açıb şənlənirlər. Bir-birini təbrik edənlər, bir-biri ilə bayramlaşmağa gedənlərə hər tərəfdə rast gələ bilərsiniz.

Tez-tez rastlaşdığım, çox danışması boşboğazlıq təsiri bağışlayan 50-60 yaşlarında kişinin xərçəng xəstəsi anasına kiminsə məsləhət gördüyü, müxtəlif meyvələrdən hazırlanması gərəkən dərmanı başa gətirmək üçün bir əl-ayaq da satın aldığını, necə tələşə düşdüyünü görüncə, mənim onun barəsində təsəvvürlərim gün görən buz kimi əridi. Mən harada yaşamasından, hansı dildə danışmasından, hansı məzhəbə qulluq etməsindən asılı olmayaraq insanın hər yerdə insan, eyni hisslərin daşıyıcısı olmasını bir daha da təsdiqləmiş oldum. Doğmalarımızın ayağına daş dəyəndə biz necə hərəkət edirik? Biz də eyni cür təlaş keçirmirikmi, eyni hisslərin əsiri olmuruqmu, eyni cür qayğı göstərməyə çalışmırıqmı?

Atının öldüyünü bizə kədərlə xəbər verən hollandın ruhi halını təsvir etmək belə mümkünsüz görünür. Çoxdan tanıdığımız, hər həftə heyvanlarına marketlərin, fırınların istifadəyə yararsız ərzaqları xüsusi səbrlə çeşidləyərək, köhnə model "Mersedes"inin arxasındakı qoşquya toplayan bu yaşlı kişinin üzünə-gözünə hopmuş kədəri kənardan belə müşahidə etmək ağır idi. İyirmi illik dostundan, ona sədaqətlə xidmət etmiş atından ayrılığın ona olduqca böyük zərbə vurduğu hər halından bəlli idi. Bizim atbazlarımızın da öz atlarından ayrılığı bu şəkildə baş vermirmi? Atın bizim xalqın tarixində oynadığı rolun böyüklüyü hamımıza bəllidir. Atın zamanında bizi məkanın, məsafənin hakimi etdiyini, onun vasitəsilə böyük qələbələrə imza atdığımızı da unutmayaq. Atı igidin qardaşı adlandırdığımızı, ata arzu-muraz kimi baxdığımızı, atla bağlı xalq inamlarımızın olmasını yadınıza salıram. Atın ölümü, itgisi bizə də eyni hissləri yaşatmırmı?

Atdan söhbət açılmışkən, hollandların at sevdalı olmasından bir qədər ətraflı danışmam gərək.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**
Niderland

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

Yeni YOL

28 FEVRAL 2022-Cİ İL № 004 (151)

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# AZƏRBAYCAN-GÜRCÜSTAN BİRGƏ UNİVERSİTETİ YARADILA BİLƏR



"Uzunmüddətli perspektivdə Azərbaycan-Gürcüstan birgə universitetinin yaradılması, ikili diplomların verilməsi məsələsi müzakirə olunur". Bunu Azərbaycanın təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, bu məsələlər texniki müzakirələr tələb edir, veriləcək qərarlar daha düzgün olmalıdır.

Nazir qeyd edib ki, Gürcüstana səfəri zamanı azərbaycandilli məktəblər üçün kadr hazırlığı məsələsinə xüsusi diqqət ayrılıb.

"Hesab edirəm ki, bundan sonra iki ölkə arasında ali məktəblərin əməkdaşlığı ilə kadr hazırlığı prosesinə təkan veriləcək", - E.Əmrullayev bildirib.

# UŞAQ BAĞÇASINDA İŞLƏMƏK ÜÇÜN NƏ TƏLƏB OLUNUR?



**Gürcüstanda uşaq bağçalarında dayə-pedaqoq statusu qazanmaq üçün işləmək istəyənlər müxtəlif meyarları qane etməlidirlər. *2024-cü ilin 1 sentyabrına qədər* erkən və məktəbəqədər təhsil müəssisələrində işləyən dayə-pedaqoqlar sonrakı tələblərdən birini qane etməlidirlər:**

a) Dayə, yaxud dayə-pedaqoq vəzifəsində işləmək üçün istənilən istiqamətdə/sahədə/ixtisasda bakalavr və ya ona bərabər olan akademik səviyyəyə sahib olsun. Bu sahədə ən azı 4 illik təcrübəsi olsun və Gürcüstanın Təhsil və Elm Nazirliyinin hazırladığı dayə-pedaqoqlar üçün peşə inkişafı treninq-modulları əsasında bələdiyyə tərəfindən təşkil edilmiş dayə-pedaqoqların hazırlanması kursunu keçmiş olsun;

b) Uşaq bağçasının dayə-pedaqoq peşə kvalifikasiyasının verilməsini təsdiq edən peşə diplomu olsun və Gürcüstanın Təhsil və Elm Nazirliyinin hazırladığı dayə-pedaqoqlar üçün peşə inkişafı treninq-modulları əsasında bələdiyyə tərəfindən təşkil edilmiş dayə-pedaqoqların hazırlanması kursunu keçmiş olsun;

***2024-cü ilin 1 sentyabrından* isə erkən və məktəbəqədər təhsil müəssisələrində işlə təmin olunmaq istəyən dayə-pedaqoqlar sonrakı tələblərdən birini qane etməlidirlər:**

a) Məktəbəqədər təhsil sahəsində bakalavr, yaxud ona bərabər akademik dərəcəsi olsun;

b) Təhsil, humanitar elmlər, psixologiya, incəsənətin 9 istiqamətində bakalavr, yaxud ona bərabər akademik dərəcəyə malik olsun və Gürcüstanın Təhsil və Elm Nazirliyinin hazırladığı dayə-pedaqoqlar üçün peşə inkişafı treninq-modulları əsasında bələdiyyə tərəfindən təşkil edilmiş dayə-pedaqoqların hazırlanması kursunu keçmiş olsun;

c) Müəllim təhsili üçün "Ümumtəhsil barədə" Gürcüstan qanunu ilə tətbiq edilmiş tələbləri qane etsin və Gürcüstanın Təhsil və Elm Nazirliyinin hazırladığı dayə-pedaqoqlar üçün peşə inkişafı treninq-modulları əsasında bələdiyyə tərəfindən təşkil edilmiş dayə-pedaqoqların hazırlanması kursunu keçmiş olsun.p

*Mənbə: etaloni.ge*

# AZƏRBAYCANA HAVA YOLU İLƏ SƏFƏR QAYDALARI MƏLUM OLUB



Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə tam iki doza peyvənd olunan Gürcüstan vətəndaşları cari il fevralın 15-dən etibarən Azərbaycana hava yolu ilə səfər edə bilirlər. Bu barədə Azərbaycanın Gürcüstandakı səfirliyindən bildirilib.

Qeyd olunub ki, səfərə yollanacaq Gürcüstan vətəndaşları uçuşdan əvvəl 72 saat ərzində alınan COVID-19-a dair PCR testin neqativ nəticəsi haqqında çap olunmuş arayış təqdim etməlidirlər.

1-18 yaş arasında olan şəxslərə münasibətdə yalnız uçuşdan əvvəl 72 saat ərzində verilmiş COVID-19-a dair PCR testinin neqativ nəticəsini təsdiq edən sənəd əsasında (COVID-19 pasportu tələb olunmur) uçuşlarını həyata keçirə biləcəklər.

Bir yaşdan aşağı yaşı olan uşaqlar üçün PCR testi tələb edilmir. Uşağın yaşı gediş tarixinə əsasən hesablanır.

# MARNEULİ İLƏ GƏNCƏ ŞƏHƏRLƏRİNİN QARDAŞLAŞMASI TƏKLİF OLUNUB



Gəncə və Marneuli şəhərlərinin qardaşlaşması təklif olunub. Təkliflə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev Kvemo Kartli bölgəsinin qubernatoru Giorgi Doxturişvili ilə görüşdə çıxış edib.

Səfir xatırladıb ki, Rustavi və Sumqayıt şəhərləri qardaş şəhərlərdir və ötən il Tbilisi və Bakı şəhərləri də qardaşlaşıb.

F.Quliyevin sözlərinə görə, Gəncə və Marneulinin qardaşlaşması Azərbaycanın Gürcüstanla regionlararası əməkdaşlığının güclənməsinə təkan verməklə yanaşı, şəhərlər arasında möhkəm mədəni-humanitar və ticari-iqtisadi əlaqələrin qurulmasına imkan yarada bilər.

Qeyd edək ki, Marneuli şəhəri eyniadlı bələdiyyənin inzibati mərkəzidir. 2014-cü ildə Gürcüstanda aparılmış son siyahıyalmaya görə şəhərdə 20 211 nəfər əhali yaşayır.

# STATİSTİKA İDARƏSİ: GÜRCÜSTANDA İŞSİZLİK AZALIB




Gürcüstanın Milli Statistika İdarəsinin yaydığı məlumata əsasən, ötən ilin son rübündə Gürcüstanda işsizliyin səviyyəsi 19 faiz təşkil edib.

Məlumata görə, 2021-ci ilin dördüncü rübündə ölkədə işsizlik səviyyəsi 2020-ci ilin eyni dövrü ilə müqayisədə 1,4 faiz azalıb.

İşsizlik səviyyəsi şəhər və kənd yerlərində fərqli olub. Şəhər tipli yaşayış məntəqələrində işsizliyin səviyyəsi 2,1 faiz, kənd tipli yaşayış məntəqələrində bu göstərici 0,2 faiz azalıb. Kişilər qadınlarla müqayisədə daha çox işsizdirlər.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.